**UOT 32:34**

# BƏLƏDİYYƏ SEÇKİLƏRİ SİYASİ HÜQUQ VƏ AZADLIQ İNSTİTUTU KİMİ

**Zəfər ABDULLAYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 25 oktyabr 2023; çapa qəbul edilmişdir: 29 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.
Received: 25th of October, 2023; accepted: 29th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *insan hüquqları, siyasi hüquq və azadlıqlar, yerli özünüidarəetmə, bələdiyyəseçkiləri*

## Giriş

İnsan hüquq və azadlıqları bəşər cəmiyyətinin öz imkanlarını sərbəst surətdə həyata keçirmək kimi psixoloji tələbatı ilə şərtlənmiş çoxsaylı tarixi, iqtisadi və sosial səbəblərin nəticəsində formalaşmışdır. Müasir insan hüquqları mütərəqqi qüvvələrin bəşəriyyəti əsarətdən azad etmək uğrunda apardıqları uzun tarixi mübarizənin nəticəsidir.

Fərdin həyatını, insan ləyaqətini və cəmiyyət həyatının bütün sahələrində fəaliyyət azadlığını təmin edən təbii imkanlar kimi dəyərləndirilən insan hüquqları insanların milliyyətindən, əqidəsindən, yaşadığı ərazidən və bu hüquqların dövlətin qanunvericilik aktlarında nə dərəcədə əks olunmasından asılı olmayaraq, beynəlxalq hüquqi tənzimləmə və müdafiənin obyektini təşkil edir.

## 1. İnsan hüquq və azadlıqlarının mahiyyəti

Siyasi və hüquqi mahiyyət daşıyan insan hüquqları problemi, ictimai-siyasi və tarixi şəraitdən asılı olaraq, müxtəlif dövrlərdə fəlsəfi, dini və siyasi baxımdan fərqli şəkildə şərh olunmuşdur. “İnsan hüquqları” anlayışının meydana gəlməsi ilk sofistlər tərəfindən irəli sürülmüş, sonradan Sokrat, Platon və Aristotel tərəfindən inkişaf etdirilmiş təbii hüquq ideyası ilə bağlıdır (10, s. 87). İnsan hüquqları ideyasının inkişafında XVII-XVIII əsrlərin burjua-demokratik inqilabları mühüm rol oynamış, bu zaman həmin hüquqlar daha geniş ölçüdə irəli sürülmüş, insan hüquqlarının universal əsası olan bərabərlik prinsipi ona demokratik xarakter vermişdir.

İnsan hüquqlarının daha sonrakı inkişafında mühüm mərhələ XX əsrin ikinci yarısı olmuşdur. İnsan hüquqlarının kütləvi olaraq kobud şəkildə pozulması ilə müşayiət olunan II Dünya müharibəsindən sonra o, dövlətdaxili problem çərçivəsindən çıxaraq beynəlxalq ictimaiyyətin daimi diqqət predmetinə çevrildi. Qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt və başqa mühüm beynəlxalq hüquqi sənədlər XX əsrdə mədəniyyət və sivilizasiyanın inkişafına misilsiz töhfə verdilər.

Ən qədim dövrlərdən başlayaraq, müxtəlif siyasi və sosial təlimlərdə öz əksini tapan insan hüquqları, yalnız burjuaziya mərhələsində cəmiyyətdə azadlıq prinsipinin və hüquqi bərabərliyin bərqərar olması ilə universal əhəmiyyət kəsb etməyə başlayır. Yaxın gələcəkdə məhz insan hüquqları beynəlxalq münasibətlərin və vətəndaş cəmiyyəti ideyasının siyasi-ideoloji əsası olmaqla bərabər beynəlxalq hüququn konseptual əsası kimi çıxış edəcəkdir (6, s. 53).

Müasir şərhlərdə insan və vətəndaş hüquq və azadlıq anlayışları arasında əsaslı fərqlərin olduğu göstərilir. Lakin bəzi tədqiqatçılar onları eyniləşdirirlər.

“Hüquq” kateqoriyası insan və ya vətəndaşın maraqlarını təmin etməyə yönəlmiş, dövlətin

* *dissertant, Bakı Avrasiya Universiteti*
*e-mail:* abdullayevz2019@gmail.com

onunla bağlı qanunla qorunan mümkün davranış ölçüsü kimi başa düşülür. Bu zaman subyekt malik olduğu hüquqdan istifadəni özü müəyyən edir, yəni bunu hansı formada və ölçüdə gerçəkləşdirmək ona aiddir.

"Azadlıq" isə insan və ya vətəndaş tərəfindən öz hüquqlarından mümkün istifadənin faktiki hüdudlarını göstərir. Bu hüdudlar daxilində dövlət onun hərəkətlərini məhdudlaşdır- mamalıdır. O, subyektin hüquqları vasitəsilə realizə olunur. İnsan və vətəndaşın azadlığı bir neçə hüququ ehtiva edə bilər. Məsələn, etiqad azadlığı insana hər hansı bir dinə etiqad etmək və ya heç birinə etiqad etməmək imkanı verir. Bu halda bir "azadlığın" tərkibində iki "hüquq" yerləşir. M.V.Presnyakov yazır: "Fikrimizcə, konstitusiyanın mətni insan və vətəndaşın bütün hüquqları məcmusundan azadlığın ayrılmasının təsadüfi xarakter daşımadığını sübut edir. Həqiqətən də, "azadlıq" daimi təbii hüquqdur, yəni dövlət tərəfindən vətəndaşa təqdim olunan deyil, insan təbiətinin özündən yaranan təbii hüquqdur" (13, s. 548).

"İnsan hüquqları" şəxsiyyət azadlığı sahəsində beynəlxalq və ümumbəşəri standart və tələbləri əks etdirən universal bir kateqoriyanı ifadə edir və demokratik quruluşa malik dövlətlər tərəfindən onun prinsiplərinə riayət olunur. Müasir dünyada hüquqi dövlətin ümdə vəzifə və funksiyaları sırasına əsas hüquq və azadlıqların təmin olunması, qorunması və realizasiyası da aid edilir (14, s. 76).

V.V.Qonçarov insan və vətəndaş hüquqları arasındakı fərqi göstərərək yazır: "İnsan hü- quqları başlanğıc xarakteri daşıyır, o, şəxsin ərazisində yaşadığı dövlətin vətəndaşı olub-olma- masından aslı olmayaraq, doğumdan bütün insanlara xasdır. Vətəndaş hüquqları isə şəxsin dövlə-tə mənsub olması əsasında təsbit olunan hüququ ehtiva edir" (4, s.15).

"Vətəndaş hüquqları" dövlətlə sabit hüquqi münasibətlərdə olan insanın hüquqi cəhətdən mümkün davranış ölçüsüdür və qanunla qorunur. Yəni subyekt doğumundan ona aid olan hüquqlara dövlətdən vətəndaşlıq hüququ olduğu halda ona malik olur. Beləliklə, müasir demokratik dövlətdə vətəndaşın hüquqlarının məzmun həcmi insan hüquqları həcmi ilə müqayisədə daha geniş olur. Əsas insan hüquq və azadlıqları sırasına insanla cəmiyyət arasında həyati vacib münasibətlər sahəsini tənzimləyən və keçici olmayan əhəmiyyətə malik, yəni bunlarsız insanın bir şəxsiyyət kimi mövcud olması qeyri-mümkün olan hüquqlar aid edilməlidir (11, s. 2).

Hüquq və azadlıqlar mənbə xarakterinə görə əsas (konstitusion) və əlavə (sahə), subyektdən aslı olaraq, insan və vətəndaş hüquq və azadlıqlarına, subyektin növündən aslı olaraq, fərdi və kollektiv (qrup), genezisinə görə təbii (anadan gəlmə) və onlardan yaranma (normativ aktlarla təsbit olunmuş), məzmunca şəxsi, siyasi və iqtisadi, sosial və mədəni növlərə ayrılır (3, s.176) .

Qeyd olunanlardan göründüyü kimi, hüquq və azadlıqlar məzmununa görə əsasən üç qrupa bölünür: a) şəxsi; b) siyasi; c) iqtisadi, sosial və mədəni. Demokratik ölkələrin konstitusiyalarında bir çox hallarda azadlıq və hüquqlar birbaşa qruplara ayrılmasa da, onların qeyd etdiyimiz əsasda qruplara ayrılması aydın görünür. Lakin bu təsnifat şərti xarakter daşıyır. Belə ki, bəzi hüquqlar öz xarakterinə görə müxtəlif qruplara aid edilə bilər. Məsələn, söz azadlığını həm şəxsi, həm də siyasi azadlıqlara aid etmək olar. Əslində bütün hüquq və azadlıqlar bölünməzdir və qarşılıqlı əlaqədədir, buna görə də, hər cür təsnifat şərti xarakter daşıyır.

Şəxsi hüquq və azadlıqlara bunlar daxildir: yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, yaşayış məskəni, hərəkət və yaşayış yerini seçmək azadlığı, vicdan azadlığı, fikir və söz azadlığı,öz hüquqlarını məhkəmədə müdafiə etmək hüququ, məhkəməyə cəlb olunduqda özünümüdafiə hüququ və s. İqtisadi, sosial və mədəni hüquq və azadlıqlara azad sahibkarlıq, xüsusi mülkiyyət, əmək, istirahət, tətil, nikah, sosial təminat, mənzil, təhsil, sağlamlığın qorunması, mədəniyyət hü- quqları, yaradıcılıq azadlığı və s. aiddir. Siyasi hüquq və azadlıqlara daxil olanlar: dövlət və bələdiyyə idarəetməsində iştirak hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, seçki hüququ, birləşmək hüququ, yığıncaqlar, sərbəst toplaşmaq azadlığı, mitinq və nümayişlər keçirmək hüququ və s. Bir qayda olaraq, elmi ədəbiyyatda insan və vətəndaşın siyasi hüquqlarınageniş hüquq və azadlıqlar siyahısı aid edilir: yalnız seçmək və seçilmək hüququ deyil, həm də toplaşmaq azadlığı, petisiya hüququ, söz azadlığı, birləşmək hüququ və s. (13, s. 549). Bəzən eynihüquq həm

siyasi, həm də şəxsi hüquqa aid edilə bilər (13, s. 549).

Ümumiyyətlə, siyasi hüquq şəxsiyyətin fərdi və ya kollektiv şəkildə beynəlxalq və dövlətdaxili normalarla təmin olunmuş halda siyasi proseslərdə, dövlət işlərində və cəmiyyətin bütün siyasi sistemində iştirak etmək hüququdur. Belə ki, Y.A.Lukaşeva siyasi hüququn özək elementi kimi vətəndaşların dövlət qərarlarının qəbul edilməsi və həyata keçirilməsi sahəsində, siyasi sahəyə daxil edilməsini hüquqi cəhətdən təmin edən dövlət işlərində iştirakı hüququnu qeyd edir (13, s. 551). Siyasi hüquqlar vətəndaşlara cəmiyyətin siyasi həyatında iştirak etmək, özünü siyasi prosesin müstəqil və azad iştirakçısı kimi göstərmək, habelə ayrı-ayrı siyasi qrup, hərəkat, birlik və s. tərkibində fəaliyyət göstərmək imkanı verən hüquqlardır. Bundan başqa, siyasi hüquq və azadlıqları insan və vətəndaşın digər hüquq və azadlıqlarından fərqləndirən bir sıra xüsusiyyətlər vardır. Bunlardan biri dövlət və yerli özünüidarəetmə fəaliyyətinin ictimai-siyasi sahəsində iştirak etməkdir. Bu hüquq müstəqim şəkildə siyasətlə, dövlətin ictimai-siyasi həyatında iştirak imkanı ilə əlaqədardır və fərdin dövlət işlərinin idarə olunmasında fəal iştirakını nəzərdə tutur. Siyasi hüquqların ən mühüm fərqləndirici bir xüsusiyyəti hər hansı bir dövlətin vətəndaşlığına malik olmaqla bağlıdır. Bəzi hüquqları dövlət yalnız öz vətəndaşlarına şamil edir. Siyasi hüquqlar digər hüquq və azadlıqlara nisbətən daha artıq dərəcədə konkretliyi, aydın və dəqiq ifadə olunması ilə fərqlənir.

Siyasi hüquqlar mahiyyətcə insanın siyasi azadlığının təzahür formalarından biridir. Bu hüquq və azadlıqların konkret bir dövlətin qanunvericiliyində təsbit olunması onları konkretləşdirir, realizə olunmalarının səmərəli mexanizm və prosedurlarını nəzərdə tutur. Siyasi hüquq və azadlıq əsasən cəmiyyətin siyasi həyatı vasitəsilə həyata keçirilir, onların məqsədi insanın siyasi proseslərə və ictimai həyata fəal şəkildə daxil edilməsidir (15, s.108). Siyasi hüquq və azadlıqlar daha artıq publik dərəcəyə malikdirlər, çünki onların müdafiə və qorunmasında yalnız konkret vətəndaş deyil, həm də bütövlükdə cəmiyyət maraqlıdır. Siyasi hüquq və azadlıqların realizasiyası həm ayrıca bir fərd tərəfindən (dövlət və yerli özünüidareətmə orqanlarına fərdi müraciət, bu orqanlara seçilmək hüququ), həm də qrup halında (yığıncaq, nümayiş və mitinq hüququ, ictimai birliklər yaratmaq hüququ) həyata keçirilə bilər. Yəni siyasi hüquq və azadlıqların daha bir xüsusiyyəti onların realizasiyasının kollektiv xarakteri ilə bağlıdır.

Vətəndaşın siyasi hüququ şəxsiyyət və dövlətin qarşılıqlı münasibətlərini ifadə edir. Onlar, əsasən, konstitusiya-hüquqi münasibətlərdə realizasiya olunur, lakin hüquqi münasibətlərdən kənar şəkildə də realizasiya oluna bilər (məsələn, söz və fikir azadlığı).

## 2. Bələdiyyə seçkilərinin əsas xüsusiyyətləri

Vətəndaşların siyasi hüquqlarının təmin olunma formalarından biri olan bələdiyyə seçkiləri yerli özünüidarəetmə sistemində yerli referendumdan sonra ikinci mühüm müstəqim demokratiya institutu hesab edilir. Bələdiyyə seçkiləri dedikdə nümayəndəli orqana bələdiyyə deputatları (üzvləri) və yerli özünüidarəetmənin digər seçkili orqan üzvlərinin seçilməsi başa düşülür. Seçkilərin özü demokratizm baxımından seçkili orqanlardan daha əhəmiyyətlidir. Nümayəndəli orqanın formalaşdırılması demokratik dövlətlərin əlamətlərindən və eyni zamanda vətəndaşların siyasi hüquqlarını həyata keçirməyin ən mühüm institutlarından biridir, xalq nümayəndəliyi isə bunu həyata keçirməyin ən adekvat və həqiqi mexanizmi olsa da, bu hakimiyyət tam ölçüdə xalqa məxsus olmur (13, s. 554).

Dövlət hakimiyyətinə və yerli özünüidarəetmənin seçkili orqanlarına azad, demokratik seçkilərin keçirilməsini hakimiyyətin xalqa məxsus olmasının bariz ifadəsi kimi dəyərləndirmək olar. Bələdiyyə seçkiləri ən geniş yayılmış, hətta bəzi bələdiyyə qurumlarında müstəqim demokratiyanın real olaraq istifadə olunan yeganə formasıdır (12, s.75).

Bələdiyyə qurumu əhalisi iradəsinin müstəqim ifadə forması olmaqla, seçkilər yerli özünüidarəetmə orqanının formalaşdırılması və onların vəzifəli şəxslərinin seçilməsinin demokratik üsulunu təşkil edir. Seçkilər vasitəsilə vətəndaşlar onların nümayəndəsi kimi hansı şəxslərinözünüidarəetmə funksiyasını yerinə yetirmək üçün daha hazırlıqlı və ləyaqətli olduğunu müəyyən edirlər.

Bələdiyyə seçkilərinin keçirilməsi qaydaları konstitusiya və qanunvericilik aktları ilə müəyyənləşdirilir. Lariçev Kanada da bələdiyyə seçkilərinin keçirilməsi qaydalarını şərh edərək yazır: "Bələdiyyə seçkilərində seçmək hüququ, Kanadanın 18 yaşdan yuxarı əqli imkanlı, müvafiq bələdiyyə qurumu ərazisində və ya konkret seçki dairəsi hüdudlarında daimi yaşayan, yaxud mülkiyyəti olan vətəndaşlara şamil edilir" (8, s. 15). Seçkilərlə yanaşı Kanada hüququnda referendum və plebistit kimi müstəqim demokratiya formaları da təsbit olunur. Diqqəti cəlb edən cəhət bundan ibarətdir ki, bu formalar məhz bələdiyyə səviyyəsində geniş yayılıb və təkcə prosedurun özü üçün deyil, həm də onların mütləq həyata keçirilməsi üçün bir sıra əsaslar müəyyən edilmişdir (8, s. 15). Seçkilər müəyyən qrup əhalinin öz içərisindən bir və ya bir neçə insanı hər hansı bir ictimai funksiyanı yerinə yetirmək üçün namizədliyini irəli sürdüyü bir üsulu təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyası və Seçki Məcəlləsinin kontekstinə əsasən belə bir nəticə çıxarmaq olar ki, bələdiyyə seçkiləri dedikdə yerli özünüidarəetmə seçkili orqan üzvlərinin seçilməsi başa düşülür. Təbii ki, seçkilərin mahiyyətini anlamaq üçün onun məqsədinin nə olmasına diqqət yetirmək lazımdır. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 210-214-cü maddələrinin məzmunundan aydın olur ki, seçkilərdəki məqsəd əhalinin öz hakimiyyətini həyata keçirmək üçün səlahiyyətlər verdiyi nümayəndələri təyin etməkdən ibarətdir (bax: 1). Yerli özünüidarəetmə orqanlarına da seçkilər tarixi, ictimai və siyasi şərait nəzərə alınmaqla müxtəlif qaydalarda keçirilə bilər. Yerli demokratiyanın effektivliyi bələdiyyə qurumu nümayəndəli orqanının formalaşması üsulu və bu zaman istifadə olunan seçki sistemi ilə bağlıdır (16, s. 45).

Müasir dünyada yerli özünüidarəetmə orqanına seçkilərdə müxtəlif üsullar, o cümlədən, majoritar və proporsional sistemlər, onların elementlərinin birləşdirilməsi (qarışıq sistem), kvota nümayəndəliyi tətbiq edilir, müstəqim və vasitəli seçkilər, habelə rotasiya və digər mexanizmlərdən istifadə olunur (16, s. 45). Belə hesab olunur ki, bələdiyyə seçkiləri üçün ən münasibolan majoritar seçki sistemidir. Belə ki, proporsional seçki sistemi deputatla seçici arasında birbaşa əlaqələri xeyli zəiflədir (16, s. 46). Lakin proporsional seçki sisteminin də öz üstünlüyü var. Partiya fraksiyaları əhalinin böyük qruplarının maraqlarını ifadə edir və onların hər birinin deputatları müzakirə olunan məsələlərə dair vahid rəylə çıxış edirlər. Proporsional (və ya qarışıq) seçki sisteminin geniş tətbiqi potensial olaraq yerli özünüidarəetmənin nümayəndəli orqanlarının seçicilərin, yəni sakinlərin qarşısında məsuliyyətinin gücləndirilməsinə kömək etməli, habelə vətəndaşların əlavə olaraq partiya-siyasi kanalı vasitəsilə yerli özünüidarəetmənin həyata keçirilməsinə cəlb olunmasına imkan yaratmalıdır (5, s. 30). Avropa Xartiyasında seçki sistemlərindən hər hansı birinin üstünlüyü və ya onun tətbiqinin məcburiliyi qeyd olunmur. Qərb ölkələrində müxtəlif sistemlər üzrə bələdiyyə seçkilərinin keçirilməsi, bu məsələdə yerli şəraitin və tarixən formalaşmış ənənənin əhəmiyyətini göstərir. İtaliyada majoritar seçki sistemi üzrə yerli özünüidarəetmə orqanı nümayəndələri tərkibindən deputatların ¾ seçilir (7, s. 61).

Belçikada partiyaların təkcə ümumdövlət miqyasında deyil, həm də yalnız yerli əhəmiyyətli məsələləri həll etmək üçün konkret bir bələdiyyə qurumu ərazisində yaradılmasına icazə verilir (7, s. 61). "Bələdiyyə seçkiləri" anlayışını dəqiqləşdirmək üçün əsas meyar olaraq bu seçkilərin yerli səviyyədə keçirilməsini, dövri olmasını, seçkilərin təşkili üzrə qanunvericiliyə əsasən qaydaların müəyyən olunmasını, seçkilərin keçirilməsi prinsiplərinin təsbit olunmasını qeyd etmək olar.

Yerli özünüidarəetmə səviyyəsində seçkilərlə başqa bir əsas müstəqim demokratiya institutu- referendum arasındakı məzmun xarakterli fərqləri aşağıdakı kimi qeyd etmək olar:

Birincisi, seçkilərin məqsədi yerli icmaya aid olan hakimiyyət səlahiyyətlərini nümayəndə kimi həyata keçirməkdən ibarət olan xalq nümayəndələrini seçməkdən ibarətdir. Referendumun keçirilməsindəki əsas məqsəd isə irəli sürülmüş məsələnin həll olunmasından ibarətdir. Müstəqim demokratiya özünün referendum formasında daha konkret ifadə olunaraq, hakimiyyət səlahiyyətlərinin nümayəndələrə verilməsini nəzərdə tutur.

İkincisi, təşkilati nöqteyi-nəzərdən seçkidə səsvermə baş tutmuş sayıldıqda onun nəticəsi xalq nümayəndələrini, yəni bələdiyyə üzvlərinin seçilməsindən ibarət olur. Referenduma gəlincə, səsvermə aktı ilə konkret bir referendumun keçirilmə prosesi başa çatmır. Ondan sonra

referendumun qərarının həyata keçirilməsi kimi mühüm bir mərhələ gerçəkləşdirilir. Seçkilər isə yerli özünüidarəetmə qurumunun nümayəndəli və icra orqanlarının, bütün nümayəndəli hakimiyyətin davranış və fəaliyyətini qiymətləndirmə və ona münasibət xarakteri daşıyır. Eyni zamanda, elmi ədəbiyyatda seçkilər haqqında nümayəndəli demokratiya institutu kimi bəhs olunması ilə razılaşmaq olmaz, çünki onun məzmunu nümayəndəli orqanın şəxsi tərkibini formalaşdırmaqdan daha çox xalqın müstəqim dövlət-hakimiyyət iradəsini ifadə etməkdən ibarətdir. Yerli özünüidarəetmə qurumunun nümayəndəli orqanını formalaşdıraraq seçicilər bütün nümayəndəli hakimiyyət sisteminə fəaliyyət proqramı vermiş olur. Demokratik seçkilər əsasında yerli özünüidarəetmə orqanları sistemini formalaşdırmaq, yalnız müvafiq qanunvericilik, habelə onun reallaşdırılmasının səmərəli təcrübəsi olduqda mümkündür (12, s.75).

Ümumilikdə seçki institutunu müstəqim demokratiyanın həyata keçirilməsinin, vətəndaşların maraqlarının təmin olunmasının bir forması, onlar tərəfindən yerli özünüidarəetmə fəaliyyətinin forma və məzmununun təyin edilməsinin real mexanizmi hesab etmək olar. Azərbaycan Respublikasında vətəndaşların yerli özünüidarəetmə orqanlarına seçmək və seçilmək hüququnun əsas təminatçısı Azərbaycan Respublikası Konstitusiyası, Seçki Məcəlləsi və s. hüquqi sənədlərdən ibarətdir. "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində göstərilir: "Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələri Azərbaycan Respublikasının vətəndaşları bu Qanunla müəyyən edilmiş qaydada çoxmandatlı seçki əraziləri üzrə ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçirlər" (2, s. 8). Seçkinin baş tutmuş hesab edilməsi üçün səsvermədə iştirak edən seçicilərin sayı, bundan əlavə bələdiyyə üzvünün seçilməsi üçün isə verilən səslərin sayı həlledici əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 238.3-cü maddəsinə görə seçkilərdə iştirak edən və seçicilərin ən çox səsini toplayan namizədlər bələdiyyə üzvlərinin sayına bərabər olaraq müvafiq bələdiyyəyə üzv seçilmiş hesab edilirlər (bax: 1).

Seçkilərin əsas məsələlərindən biri namizədlərin irəli sürülməsi və onların müəyyən tələblərə uyğun olmasıdır. Seçicilər arasında aparılan rəy sorğuları əksər hallarda onu göstərir ki, əsas tələblər arasında bir qayda olaraq yüksək əxlaqi keyfiyyət, səriştəli olmaq, təşkilatçılıq bacarığı, yüksək məsuliyyətlilik, təşəbbüs və fəallıq, insanlara diqqət və onların ehtiyaclarına qayğı əsas yer tutur.

Müxtəlif ölkələrdə bələdiyyə seçkiləri problemi ilə bağlı olan müzakirələr bu gün iki əsas məsələ ətrafında aparılır: 1) bələdiyyə qurumu başçısının seçilməsi; 2) yerli özünüidarəetmənin nümayəndəli orqan deputat korpusunun formalaşdırılmasının seçki mexanizmi (9, s. 20). Hazırda legitim qayda kimi yerli özünüidarəetmə başçısının seçilməsinin üç üsulu nəzərdən keçirilir: 1) müstəqim seçkilərin gedişində əhali tərəfindən; 2) yerli özünüidarəetmə orqanı və nümayəndəli orqan tərəfindən; 3) müsabiqə komissiyası tərəfindən müəyyən olunmuş namizədlər içərisindən nümayəndəli orqan tərəfindən (9, s. 21). Fikrimizcə, bələdiyyə başçısının müstəqim seçkilər vasitəsilə seçilməsi daha demokratik üsul hesab edilməlidir. Qeyd etmək lazımdır ki, seçildikdən sonra çətinliklərlə üzləşdikləri təqdirdə bəzən bələdiyyə üzvlərinin öz vəzifələrini icra etməyə maraqları azalır, hətta onların iclaslarda iştirak etməmə hallarına təsadüf olunur. Buna səbəb kimi, insanların siyasi proseslərə laqeydliyi, passivlik, yerli icmanın işinə ögey münasibət, bələdiyyə üzvünün nüfuzunun az olması və seçkiqabağı təşviqatın qeyri-qənaətbəxş təşkil olunması kimi halları göstərmək olar. Bütün bunlar isə seçicilərlə yaxşı işləmək, mükəmməl qanunvericilik bazası kimi tələblərlə yanaşı, seçki prosesinin hazırlanıb keçirilməsi üzrə bacarıqlı təşkilatçılıq işi tələb edir.

Hakimiyyət orqanlarına seçki zamanı seçkiqabağı təşviqat aparılması siyasi mübarizənin bir forması hesab olunur və bu siyasi qüvvələrin öz nümayəndələrinə publik hakimiyyəti həyata keçirmək üçün səlahiyyətlər qazandırmaq uğrunda mübarizəsidir. Bu mənada bələdiyyə seçkiləri də istisnalıq təşkil etmir.

Bundan əlavə, yerli seçkili nümayəndə mandatı uğrunda mübarizənin iki mühüm aspektini də qeyd etmək olar: birincisi, yerli özünüidarəetmə orqanı tərəfindən həll olunan məsələlərin

spesifikliyi, ikincisi, bələdiyyə qurumu miqyasının böyük olmamasıdır.

Qeyd etmək lazımdır ki, bələdiyyə seçkiləri siyasi sistemin fundamental əsaslarından birini təşkil etdiyindən, təbii ki, onun keçirilməsi və vətəndaşların bu seçkilərdə iştirakı prinsiplərinin konstitusiyada və digər qanunvericilik sənədlərində əks olunması zəruridir.

## Nəticə

İnsan hüquq və azadlıqlarının əhəmiyyətli bir qismini təşkil edən siyasi hüquq və azadlıqları, vətəndaşın ictimai həyatın və dövlətin idarə olunmasındakı fəal iştirakını müəyyən edir. Hakimiyyətin xalqa məxsus olmasının bariz ifadəsi olan siyasi hüquq və azadlıqlar sistemində seçki hüququ, o cümlədən, bələdiyyə seçkiləri mühüm yer tutur. Bələdiyyə seçkiləri təkcə xalq hakimiyyətini həyata keçirməyin bir forması deyil, həmçinin bu hakimiyyəti legitimləşdirməyin əsas formasıdır. Yerli özünüidarəetmə dövlət hakimiyyəti sisteminə daxil olmadığından bələdiyyə seçkiləri bu qurumun nümayəndəli orqanını təyin etməklə xalqın yerli səviyyədə müstəqim surətdə öz iradəsini ifadə etmə forması kimi çıxış edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı: Mərkəzi Seçki Komissiyası, 2020, 295 s.
2. "Bələdiyyə seçkilərinin qaydaları haqqında" Azərbaycan Respublikası Qanunu, 293 s. (https://files.preslib.az/projects/municipal/gl2.pdf)
3. Афанасьева С.А. Содержание и система политических прав и свобод чело- века и гражданина // Международный научный журнал «Инновационная наука», 2015, № 6, с. 176-179.
4. Гончаров В.В. Политология прав человека. Краснодар: КубГАУ, 2020, 208 с.
5. Евдокимов Н., Севастьянов С. Становление партийно-политического представительства на муниципальном уровне (на примере Республики Башкортостан) // Власть, 2011, №9, с. 30-32.
6. Ибрагимов К.Д. Права и свободы человека как основные элементы социальной жизни гражданского общества // Вестник науки и образовании, 2021, №7(110), часть 2, с. 52-55.
7. Кудрявцев В.В. Гласность при формировании муниципальных органов власти в зарубежных государствах // Вестник Марийского государственного университета. Политологические науки, Серия «Исторические науки. Юридические науки», 2015, №2, с. 60-64.
8. Ларичев А.А. Формы непосредственного осуществления населением местного самоуправления и участия граждан в его осуществлении: опыт Канады // Журнал зарубежного законодательства и сравнительного правоведения, 2016, №5, с.14-20.
9. Майкова Э.Ю., Симонова Е.В. Институт муниципальных выборов в современной России: проблемы и перспективы развития // Власть, 2019, №5, с. 19-27.
10. Мецгер А.А. Права граждан в механизме осуществления правоприменительной деятельности // Право и управление, 2021, №2, с.87-94.
11. Мирзагитова А. Л. Понятие прав и свобод человека и гражданина в Российской Федерации и их классификация // International scientific review, 2021, №LXXXIII, с.1-4
12. Ниматуллаева Р.А. Выборы в органы местного самоуправления: актуальные вопросы (на примере Республики Дагестан) // Юридический вестник ДГУ, т. 16, , 2015, № 4, с. 74-77.
13. Пресняков М. В. Политические права и свободы: проблемы определенности содержания // Вестник СПбГУ. Право, 2022, т. 13, Вып. 2, с. 547- 564.
14. Приварина А.Н. Основные гарантии прав и свобод человека и гражданина // Марийский юридический вестник, Выпуск 4, 2005, с. 76-80.
15. Сорокун Р.В. Понятие и сущность политических прав и свобод // Эпоха науки, 2022, №30, с. 104-109.
16. Юсубов Э.С. Избирательные системы на муниципальных выборах: тео рия и практика применения // Российское право, 2015, №4, с. 45-50

***Резюме***

***Зафар Абдуллаев***

***Муниципальные выборы – как институт политических прав и свобод***

Формирование идеи прав и свобод человека явилось результатом многовекового исторического процесса, дальнейшее развитие она получила под влиянием буржуазно-демократических революций XVII-XVIII веков, а в XX веке, после Второй мировой войны, которая сопровождалась грубыми нарушениями этих прав и свобод, она превратилась в предмет обсуждения на уровне международного сообщества. Институт прав и свобод, занимающий важное место в конституциях современных демократических стран, гарантирует народу свободы, а также предотвращает произвол государства в отношении каждого отдельно взятого человека. Права и свободы, охватывающие политическую, частную, социальную, экономическую и культурную сферы, играют роль гаранта обеспечения деятельности как всего общества, так и отдельного индивидума. Политические свободы играют исключительную роль в обеспечении прав граждан, защите активного гражданского общества, установлении и укреплении справедливости и различных политических взглядов. Политические права и свободы означают, что человек или группа могут свободно выражать свои политические взгляды, участвовать в политической деятельности и влиять на принятие политических решений, и это, как правило, гарантируется законом. Право голоса, в том числе на муниципальных выборах, занимает важное место в системе политических прав. Путем муниципальных выборов население выбирает в выборный орган самого достойного и активного человека, то есть определяет наиболее квалифицированного человека для исполнения своих функций в местном самоуправлении. Предпочтение отдается тем, кто своим поведением завоевал авторитет и чья предвыборная программа пользуется поддержкой у народа.

В статье автор анализирует особенности прав и свобод человека, в том числе политических прав и свобод, уточняются основные принципы муниципальных выборов и их природа как института прямой демократии.


**Ключевые слова:** *права человека, политические права и свободы, местное самоуправление, муниципальные выборы*


***Summary***

***Zafar Abdullayev***

***Municipal elections are an institution of political rights and freedom***

The formation of human rights and freedoms idea was the result of a centuries-long historical process, it was further developed under the influence of bourgeois-democratic revolutions in the 17th-18th centuries. In the 20th century, it became the subject of discussion by the international community after World War II, which was accompanied by gross violations of these rights and freedoms. Rights and freedom institutions, which occupy an important place in the constitutions of modern democratic countries, reflect the freedom of the people and the prevention of arbitrary actions of the state against individuals. The rights and freedoms covering the political, personal, social, economic and cultural spheres are a guarantor in ensuring the acti- vity of the entire society and a separate individual.

Political freedoms have an exceptional role in ensuring citizen rights, protecting an active civil society, establishing, strengthening justice and various political views. Political rights and freedom mean that an individual or a group can freely express their political views, participate in political activities and influence the adoption of political decisions, which is guaranteed by law. The right to vote, including municipal elections, occupies an important place in the system of political rights. Through municipal elections, the population determines the most worthy and active person for the elected body, that is, prepared person to perform his or her function in local self-government. Preference is given to people who influence the people by their behaviour and whose election program is supported.

In the article, the author analyses the characteristics of human rights and freedoms, including political rights and freedoms, the main principles of municipal elections and their nature asan institution of direct democracy are clarified.


**Keywords:** *human rights, political rights and freedoms, local self-government, municipalelections*

Redaksiya heyətinin üzvü s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.